# "MÜQTƏDİR TƏNQİDÇİ" - SEYİD HÜSEYN

("Tənqid tariximizdən" IX yazı)



**Vaqif YUSİFLİ,**
**filologiya elmləri doktoru**

**XX əsrin əvvəlləri (1900-1920) Azərbaycan ədəbiyyatında yeni bir mərhələ kimi səciyyələndirilir və hətta bu dövr bir intibah - milli mədəniyyətimizin inkişafında zirvə, bütün əvvəlki ədəbi mərhələlərdən fərqli bir ədəbi zaman hesab olunur. Milli mətbuatın "Əkinçi"dən sonra parlaq bir dövrü, şeirin, nəsrin, dramaturgiyanın, publisistikanın və teatr sənətinin misli görünməmiş yüksəlişi, azərbaycançılıq və türkçülük ideyalarının milli şüur səviyyəsində dərki, tənqidi realizmin və romantik ədəbi cərəyanın formalaşması, Qərb və rus ədəbiyyatına meylin artması bütün bunlar həm son dərəcə aydın, həm də son dərəcə mürəkkəb və ziddiyyətli bir ədəbi dövrü xarakterizə edir. Və bu dövrdə ədəbi şəxsiyyətlərin rolu xüsusi qeyd edilməlidir. Cəlil Məmmədquluzadə, M.Ə.Sabir, Əli bəy Hüseynzadə, Əhməd Ağaoğlu, Məhəmməd Hadi, Hüseyn Cavid, Üzeyir Hacıbəyli, Nəriman Nərimanov, Firidun bəy Köçərli, Ə. Haqverdiyev, Abbas Səhhət, Abdulla Şaiq, N.B. Vəzirov, Ö. F. Nemanzadə, Ə. Qəmküsar, Y. V. Çəmənzəminli, M. S. Ordubadi, S. S. Axundov, Əhməd Cavad, Cəfər Cabbarlı-doğrudan da XX əsrin ədəbi pleyadasını təşkil edən bu şəxsiyyətlər "həpsi bir günəşin zərrələridir".**

XX əsrin əvvəlləri ədəbi tənqidin də yeni bir mərhələsidir və bu mərhələni Mirzə Fətəli Axundzadədən sonra davam və inkişafı gözlənilən, lakin davamlı olmayan bir sahənin artıq müstəqil status qazanması, ədəbi janrlarla bir sırada addımlaması kimi səciyyələndirmək olar. Ədəbi tənqidin inkişafında, onun ədəbi prosesi öz arxasınca aparmasında (hər zaman olmasa da!) heç şübhəsiz, tənqidçi şəxsiyyətinin rolunu inkar etmək olmaz. XX əsrin əvvəllərində belə bir tənqidçi Seyid Hüseyn (Kazımoğlu) olmuşdur. Görkəmli tənqid tarixçisi-akademik Kamal Talıbzadə yazır ki: "Əgər F.Köçərli Azərbaycan realizminin M.F.Axundov dövrünü əsas götürüb, bu ədəbi məktəbin Azərbaycanda tarixi mövqeyini işıqlandırmaqla məşğul olurdusa, Seyid Hüseyn bütün diqqətini müasir ədəbiyyat məsələlərinə verir, onu realizm prinsipləri nöqteyi-nəzərindən saf-çürük edir, realizm məktəbinin yeni nəsli haqqında, çap olunan, tamaşaya qoyulan əsərlər haqqında ardı-arası kəsilmədən məqalələr yazırdı". Burada Xalq yazıçısı, həm də görkəmli tənqidçi Mehdi Hüseynin "Seyid Hüseyn" məqaləsindəki (1963) bir fikrinə münasibətimizi bildirək. Mehdi Hüseyn həmin məqalədə S.Hüseyni bir nasir kimi təqdir edir, onun şirin, duzlu, son dərəcə koloritli hekayələrindən söz açır, lakin onu bir tənqidçi kimi bəyənmir. Yazır ki: "Seyid Hüseyn ədəbiyyat aləminə hələ inqilabdan çox əvvəl qədəm basmışdır, lakin o, yazıçılığa nasir kimi deyil, qısa ədəbi tənqidi məqalələri ilə başlamış və bu məqalələrin heç biri ona inqilabdan sonrakı şöhrəti qazandırmamışdır. Əgər bir az da dəqiq desək, Seyid Hüseynin tənqidi məqalələri heç vaxt orta səviyyədən yuxarı qalxmamış və onların heç birinin bu gün üçün ciddi əhəmiyyəti yoxdur". Əlbəttə, bu fikirlə heç cür razılaşmaq olmaz. Doğrudur, o, iyirminci-otuzuncu illərdə bir hekayəçi kimi daha çox məşhur idi, lakin Seyid Hüseynin tənqidçi kimi fəaliyyəti də zamanında yüksək qiymətləndirilirdi, Cəfər Cabbarlı yazırdı ki: "Seyid Hüseyn yalnız Azərbaycanda deyil, bəlkə bütün Zaqafqaziya türkləri arasında müqtədir tənqidçi adını daşımağa ləyaqət qazanmış münəqqiddir". Heç bir tərifə ehtiyac duymadan deyə bilərik ki, əgər biz Azərbaycan ədəbiyyatında həqiqi TƏNQİDÇİ OBRAZIndan söz açırıqsa, Seyid Hüseynin adını birincilər sırasında çəkməliyik. Məsələ burasındadır ki, Seyid Hüseynin yaşadığı dördə, yəni XX əsrin əvvəllərində mətbuatda müasir ədəbiyyatın müxtəlif problemləri ilə bağlı məqalə və resenziyarla çıxış edən tənqidçilər var idi, lakin onların heç biri Seyid Hüseyn qədər bu işə can yandırmamışdı.

Gəlin, Seyid Hüseynin bir tənqidçi kimi fəaliyyətinin əsas məqamlarını, sadə sözlərlə ifadə etsək, gördüyü işləri nəzərə çarpdıraq.

İlk növbədə, TƏNQİDÇİ ŞƏXSİYYƏTİ haqqında. Seyid Hüseyn "Hüseyn Sadiq", "Seyid Hüseyn Sadiqzadə", "Kazımoğlu", "S.Ş", "H.S.", "Seyid Hüseyn" imzaları ilə dövrü mətbuatda tez-tez çıxış edirdi, Yeni əsərlər, yeni tamaşalar, ədəbiyyatda diqqəti cəlb edən uğurlu poeziya, nəsr və dram əsərləri barədə çox zaman ilk sözü Seyid Hüseynin yazılarında izləmək olurdu və artıq bütün ədəbi ictimaiyyətin nəzərində Seyid Hüseyn bir tənqidçi kimi məşhurlaşırdı. Öncə Cabbarlının fikrini xatırlatdıq, bu fikri Seyid Hüseynin bir tənqidçi kimi təkcə məşhurluğunu deyil, həm də öz peşəsinə həddindən artıq məsuliyyətlə yanaşması ilə də izah etmək olar. Yenə Kamal Talıbzadəyə müraciət edək: "Yazıçıların S.Hüseynə müraciət edib əsərləri haqqında məqalə yazmasını xahiş etmələri yaxud onu özlərinin "milli münəqqid" adlandırmaları təsadüfi deyildi. Gənc tənqidçi dəfələrlə göstərirdi ki, onun məqsədi məqalələri ilə ədəbiyyatın inkişafına kömək etmək, onu doğru yola istiqamətləndirməkdən ibarətdir".

Tənqidçi şəxsiyyətini səciyyələndirən bir amil də onun ədəbi prosesle nə dərəcədə bağlı olmasıdır - Seyid Hüseyn əsl peşəkar idi və ədəbi prosesi diqqətlə izləyirdi, mətbuatda çap olunan bədii ədəbiyyat nümunələrini diqqətlə izləyir, bədii prosesi, ədəbiyyatı, bu ədəbiyyatın hələ şərh etmədiyi məsələləri aydınlaşdırırdı. Yazıçılar onun şərhlərinə, tənqidi qeydlərinə inanır və Seyid Hüseynin fikir və mülahizələrini qəbul edirdilər. Bu inamı isə hər tənqidçi qazana bilməzdi. Yaşar Qarayevin "Tənqidin nüfuzu" məqaləsində bir münəqqidin etirafını xatırladaq. Həmin münəqqid etiraf edirdi ki, kəskin tənqidi məqaləni, əvvələn, yazmaq çətindir, ikincisi-çap etdirmək çətindir, çapdan sonrakı təzyiqə dözmək, tab gətirmək isə bunların ikisindən də çətindir! Amma Seyid Hüseynin tənqidçi kimi heç nədən çəkinmədiyi, yazıçıların əsərlərinə münasibətdə "düzü düz, əyrini əyri" göstərməyi onun tənqidi məqalələrində çox aydın nəzərə çarpırdı. O, bütün qələm dostlarından, həmkarlarından da bu prinsipial mövqeyi, tənqidçiyə xas olan obyektivliyi, cəsarəti və həqiqəti deməyi tələb edirdi. Məqalələrinin birində yazırdı: "Biz haçana qədər tənqiddən qorxacağıq? Tənqidsiz ədəbiyyat ormanlarda bitən yabanı ağac misalında olar ki, onda gözəl, nəzərə xoş görünən bir meyvə bulmaq olmaz. Bir az açıq danışmaq lazım gəlsə, cəsarət edib demək olar ki, tənqidsiz yazı və mətbuat tərbiyəsiz və bu tərbiyəsizlikdən dolayı əxlaqsız cocuklar kimi olur ki, hər qisim nəzakətsizlikdən arkadaşlarına qarşı föhş deməkdən çəkinməz" (Sitat K.Talıbzadənin "Seyid Hüseyn və ədəbi tənqid" məqaləsindən götürülüb). Ən maraqlısı və bu gün üçün də örnək olası o idi ki, Seyid Hüseyn həmkarlarından və yazıçılardan tənqiddə polemikaya, fikir müxtəlifliyinə, mübahisə mədəniyyətinə yiyələnməyi tələb edirdi. Bəzi yazılarına görə onu tənqid də edirdilər, bu, Seyid Hüseyni qətiyyən əsəbiləşdirmirdi, o, özünü haqlı saydığı üçün ya həmin yazılara cavab verir, ya da opponentini mədəni şəkildə, yeni izah və dəlillərlə susdura bilirdi. Yəni tənqidi şəxsiyyəti özündə ilk növbədə, tənqidçiyə xas olan təmkin və dözümlülüyü ehtiva edirdi.

Seyid Hüseyn tənqidin ədəbi prosesdə rolunu, mövqeyini təkcə sözdə ifadə etmirdi, həm də fəal tənqid təşkilatçısı kimi də diqqəti cəlb edirdi. 1919-cu ildə Seyid Hüseynin rəhbərliyi ilə "Yaşıl qələm" adlı ədəbiyyat dərnəyi yaradılır. Bu dərnəkdə təkcə əsərlər oxunmur, eyni zamanda, müasir yazarların əsərləri müzakirə edilirdi. O, müxtəlif qəzetlərdə redaktor və naşir olmuşdu, bu mətbuat orqanlarında da tənqidi fikrin inkişafına xüsusi diqqət yetirirdi. Şura inqilabından sonra da o, tənqidçilik fəaliyyətini davam etdirir, müasir ədəbiyyat məsələlərinə dair məqalələr yazırdı. İyirminci illərdə Seyid Hüseyn bir ədəbiyyat dərnəyi təşkil etmiş, gənc yazarların bir çoxu o dərnəkdə S.Hüseynin faydalı məsləhətlərini dinləmişlər, Mirzə İbrahimov və Süleyman Rüstəm sonralar etiraf edəcəklər ki, onların ilk sənət müəllimi S.Hüseyn olub.

Seyid Hüseynin tənqidçilik fəaliyyəti çoxşaxəli idi. Klassik ədəbiyyatdan da yazırdı (bu yazılar daha çox tanıtma və təbliği xarakter daşıyırdı), müasir ədəbiyyatdan da. Yazılarında (bunlar əsasən məqalə, resenziya ədəbi polrret janrlarında olurdu) nəzəri məsələlərə də xüsusi diqqət yetirirdi. Sırf nəzəri fikirlərini ifadə edən ayrıca məqaləsi olmasa da, yeri gəldikcə ayrı-ayrı məqalələrdə nəzəri fikirlərini də ifadə edirdi. Məsələn, Cəfər Cabbarlının yaradıcılığına həsr etdiyi "Açıq tənqid" sərlövhəli bir məqaləsində (1919) Cabbarlının realismi yoxsa romantikmi olduğunu şərh etməyə çalışmışdı. "Romantik mührərrirlər heç bir qanuna tabe olmaq istəməzlər. Onlar, romantiklər, öz düşüncə və mühakimələrində sərbəstdirlər. Onlar hər şeydə gözəlliyi görürlər və bu yolda hissiyyati-şədidəyə namütənahi bir surətdə qapılırlar. Hələ bəziləri tarixi simalara istədikləri təbiət və xasiyyətləri vermək, tarixin xilafına hərəkət etdirib söz söylətdirmək səlahiyyətinə də malik bulunurlar. Kimsə onları məsləhətlərindən dolayı tənqid etməz. Romantiklər həyatı istədikləri təcəllidə görmək istəyirlər, onu bir takım rəngarəng əlbisələr ilə süslərlər, bu, onların təbiətləridir". Əlbəttə, burada romantizmə verilən tərif tam və dolğun deyildi, amma hər halda həmin dövr üçün səciyyəvi idi. Nəzəri fikir tam formalaşmamışdı.

Seyid Hüseynin ən çox sevdiyi sənətkarlar var idi və bu sənətkarlar sırasında heç şübhəsiz. Mirzə Ələkbər Sabir birinci idi. Sabirin ölümündən səkkiz il sonra ona həsr etdiyi bir məqaləsində böyük vətənpərvərlik hissi ilə yazırdı: "Ə.-Sabirin qiymətini indiyə kimi bizim millət bilməyib. Əgər belə şair özgə millətdə olsaydı, ona heykəl qoyardılar, onun əsərləri min-min tirajlarla nəşr olunardı, onu hər bir əcnəbi dilə tərcümə edərdilər, hər il ona yadigar axşamlar, müsamirələr edərdilər, onun adını ucaldardılar, vird edərdilər. Qonşu və əcnəbi millətlərə göstərərdilər ki, onların da milləti dahilər yaratmağa qabildir. Bizim ən böyük milli eyiblərimizdən biri budur ki, biz öz şairlərimizi, ədiblərimizi, millətsevərlərimizi qiymətləndirə bilmirik, onlara laübalı, bəzən mərhəmətsiz baxırıq. Geniş intişara layiq olan Ə.Sabirin kitabı heç bir yerdə tapılmır. Qoqol hər bir rusun sevimlisi olduğu kimi, indi Sabir də hər azərbaycanlının sevimlisidir". Bu yazı yazıldığı vaxt doğrudan da Sabirin əsərləri küll halında çap olunmamışdı, ona heykəl qoyulmamışdı. Ümumiyyətlə, klassik ədəbiyyata və klassiklərə münasibətdə Seyid Hüseynin vətənpərvərlik hissi daha qabarıq nəzərə çarpırdı - o, Vaqifin və Vidadinin dilini "Azərbaycan şeirinin dili budur" deyə təqdir edirdi - Seyid Əzimin həcvlərinin çapını isə təqdir eləmirdi, yazırdı ki, məktəbdə oxuduğu zaman Qafqazda şair olaraq yalnız bir Seyid Əzimi tanıyırmış, Seyid Əzim gözəl lirik şair və qəzəldə ustadi-əzəmdir, onun həcvlərini çap eləmək isə "mətbuata yaraşmayan" bir hərəkətdir. Seyid Hüseyn Füzulini "Azərbaycan şairlərinin" başçısı adlandırır və yazırdı ki: "indi bizdə hər kəs Füzuli olmaq istəyir, onun əşarına nəzirələr yazıyor, halbuki, bu gün Füzuli kimi qəzəl yazmaq bir ş qədər də böyüklük olamaz. Füzuli şeirləri ancaq zamanına görə qiymətlidir".

XX əsrin əvvəllərində Azərbaycan nəsri öz inkişafının yeni bir mərhələsinə qədəm qoymuşdu, Mirzə Cəlil, Ə.Haqverdiyev və Y.V.Çəmənzəminli üçlüyü bu nəsrin irəlici qüvvəsini təşkil edirdi və S.Hüseynin məqalələrində Azərbaycan hekayəsinin o zamankı mənzərəsi ilk dəfə öz əksini tapırdı. O, təqdir etdiyi, haqqında söz açdığı hekayələrdə Azərbaycan məişətinin və həyatının doğru, dürüst təsvir edilməsini vacib sayırdı, buna görə də Y.V.Çəmənzəminlini və Ə.Haqverdiyevi o, "müqtədir" yazıçılar hesab edirdi. Seyid Hüseynin tənqidçilik fəaliyyətində Azərbaycan romanı ilə bağlı məsələlər də geniş əks olunmuşdu və deyək ki, bu problemlə ən çox maraqlanan tənqidçi Seyid Hüseyn idi. Roman Azərbaycan ədəbiyyatı "səhnəsinə" yenicə daxil olurdu və əlbəttə, əsrin əvvəllərindən Şura inqilabına qədər təxminən iyirmi beşdən artıq əsasən kiçik həcmli romanlar yazılıb çap olunmuşdu. Azərbaycan oxucusu artıq belə bir janrın mövcud olduğunu hiss edirdi. Seyid Hüseyn romanın ədəbiyyatımız üçün gərəkliliyini belə izah edirdi: "Romançılıq ədəbiyyat aləmində bir sənətdir. Bizim ədəbiyyatımız sair müsəlman olan millətlər ilə bərabər şeir babində çox irəliləmişdir Nəsr babində qeyrilərə nisbət geridə qaldığından romançılıq sənəti bizdə bir halətdədir. Halbuki, romanın təhzizi-əxlaq üçün əhəmiyyəti çoxdur. Bu cün fikri söyləmək üçün romandan gözəl bir alət olmaz. Roman vasitəsilə bir millətin həqiqət kimi qəbul etdiyi nöqsanlarını elə tənqid etmək olar ki, oxucu onu şirin oxumaqla, öz nöqsanlarını düşünə bilər".

Seyid Hüseyn Azərbaycan romanının ilk mərhələsində yaranan bu kiçik romanları bir çoxuna məqalələr həsr etmiş, o əsərlərin məziyyətləri və qüsurları barədə fikrini çəkinmədən söyləmişdir. O dövrün ədəbi həqiqəti bu idi ki, romanda gərək həyat, təsvir edilən hadisələr və obrazlar reallığı əks etdirsin. S.Hüseyn M.S.Ordubadinin "Bədbəxt milyonçu" əsərini "bütün həqiqətləri ilə bir roman" adlandırırdı. Romanın əsas konfliktini İran istibdadı ilə demokratik qüvvələr arasında münaqişədə görürdü. Təsvir edilən müsbət obrazların hərəkətlərini təqdir edən tənqidçi, onların yaşadığı mühitdə maarifçiliyi təbliğ etmələri, lakin həm ailə, həm də ictimai mühitdə bədbəxtliyə düçar olmalarını faciə hesab edirdi. Amma əsas odur ki, bu romanla Ordubadi artıq realist bir sənətkar kimi inkişaf edir. S.Hüseynin bəyəndiyi romanlardan biri də A.Divanbəyoğlunun "Can yanğısı əsəri idi. Bu əsəri o, dilinin təmizliyinə, səlisliyinə, obrazların təbii surətdə təsvir edilməsinə görə bəyənirdi. Əlbəttə, Seyid Hüseynin həmin romanlara həsr etdiyi məqalələrdə çatışmayan cəhətlər də yox deyildi, xüsusilə, həmin əsərləri təhlil edərkən məzmunçuluq edir, təhlilləri bəzən üzdən aparırdı. Ancaq elə romanlar vardı ki, Seyid Hüseyn haqlı olaraq onları kəskin tənqid atəşinə tuturdu. Məsələn, Bağır Cabbarzadə adlı bir müəllifin "Bir yetimin naləsi, yaxud qardaş qardaşa etdiyi xəyanət", Rza Zaki adlı başqa bir müəllifin "Fədai-eşq" romanlarını o, saxta, süni, qurama yol ilə yazıldığını, bundan oxucuların zövqünün korlanacağını söyləyirdi. Mərhum ədəbiyyatşünas Əflatun Məmmədovun "Azərbaycan bədii nəsri-XIX əsrin sonu-XX əsrin əvvəlləri" monoqrafiyasında Seyid Hüseynin bu tipli romanlara qarşı yazdığı tənqidi məqalələrdən söz açılır, xüsusilə Rza Zəki adlı müəllifin aşiqanə-macəra tipli romanlarına tənqidi münasibəti geniş şərh olunur. Bu romanların əksəriyyəti osmanlı müəlliflərindən iqtibas edilmişdi.

Seyid Hüseyn hər cür naturalizmin, çılpaq həyat səhnələrinin təsvir edilməsinin əleyhinə idi. O, fransız yazıçısı Emil Zolyanı bir qüdrətli sənətkar kimi qiymətləndirirdi, onun realist mövqeyini müasir yazarlara nümunə göstərirdi, amma naturalist təsvirlərini nöqsan hesab edirdi. Tarixi hadisələri kopiyalamağı da qüsurlu sanır, yazıçılardan fotoqrafçılığa enməməyi tələb edirdi. Maraqlıdır ki, o, gənc Cəfər Cabbarlının "Ədirnə fəthi" və "Bakı müharibəsi" pyeslərini də bəyənməmiş, onları naturalist əsərlər adlandırmışdı, S.Hüseynin fikrincə, Cabbarlı istedadlı dramaturqdur, amma bu iki əsərdə tarixi hadisələri üzdən təsvir edib.

Seyid Hüseynin ədəbi-tənqidi görüşlərini şərh edərkən belə bir fikri vurğulamaq lazımdır ki, o, sənətdə realizm tərəfdarı idi. Olsun ki, onun realizm metodu və prinsipləri ilə bağlı fikir və mülahizələri yetərincə əsaslandırılmamışdı, amma ilkin halda, hələ nəzəri fikrin tam formalaşmadığı bir dövrdə bu mülahizələr maraq doğurudu. "Hər şeyi olduğu kimi kopiya edən naturalizmin əksinə olaraq "həqiqiyyun"-realist ədəbiyyat yazıçının daxili aləmini, hadisələrə münasibətini göstərmək üçün də imkan verir. Bir müəllif bir vəqəni, bir tarixi özünə mövzu qərar verər, orada kəndi fikrini, kəndi ruhunu irəli çəkər, kəndisindən oraya bir çox şeylər əlavəsilə onu sənətkaranə bir hala qoya bilər".

Seyid Hüseyn tərcümə, təbdil, milli kolorit, tipiklik, ideyalılıq və s. ədəbi problemlər barədə də müəyyən fikirlər söyləmişdi və çox təəssüf ki, biz Seyid Hüseyni yalnız gözəl hekayələr müəllifi kimi tanımışıq, onun tənqidçilik fəaliyyətini lazımınca şərh etməmişik.

**Və onun ədəbi-tənqidi fəaliyyətini əks etdirən yazıları indiyə qədər kitab halında çap olunmamışdır. Halbuki, buna böyük ehtiyac duyulur.**